# Suveren Fondların Beynəlxalq Forumunun Kommünikesi

İqlim dəyişikliyinin sürətlə artan təsirləri artıq bütün dünyada hiss olunur və ekosistemlərə, insan sağlamlığına, iqtisadi sabitliyə və ümumilikdə, davamlı inkişafa təhdid yaradır. Hər bir dərəcə temperatur artımı ilə iqlim təsirləri güclənməkdə davam edir və qlobal investisiyaların həm karbon emissiyalarının azaldılması, həm də iqtisadi dayanıqlılığı artırmaq üçün uyğunlaşma tədbirlərinə yönəldilməsi zərurəti əvvəlkindən daha çox əhəmiyyət kəsb edir.

Son beş ildə iqlim dəyişikliyi ilə mübarizə tədbirlərinin maliyyələşdirilməsi Suveren Fondların Beynəlxalq Forumunun (SFBF) üzvləri üçün əsas investisiya mövzusuna çevrilmişdir. Artıq daha çox Suveren Sərvət Fondları (SSF-lər) iqlim dəyişikliyinin maliyyə risklərini idarə etməli olduqlarını qəbul edir, karbon emissiyalarının azaldılması, iqlim dəyişikliyinə uyğunlaşma tədbirləri və bu dəyişikliklərə cavab olaraq iqtisadi dayanıqlılığın artırılması sahəsində yaranan imkanları da dəyərləndirirlər. SSF-lər öz karbon izlərinin hesabatını aparır və portfelində karbon aktivlərini azaltmaq öhdəliyi götürür. Bəzi SSF-lər iqlimlə bağlı maliyyə riskləri və imkanlarını böyük və uzunmüddətli aktiv portfellərinə inteqrasiya etmək səylərini gücləndirmək üçün Vahid Planet Suveren Sərvət Fondu Şəbəkəsi kimi təşəbbüslərə qoşulublar.

Biz COP29 Sədrliyinin təşəbbüsü və Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) ilə əməkdaşlıq çərçivəsində, iqlim tədbirlərinə kapitalın yönləndirilməsi və onu səfərbər edilməsi məsələlərində SSF-lərin tutacağı əsas mövqeyin araşdırılması məqsədilə, Beynəlxalq Valyuta Fondu təmsilçilərinin də iştirakı ilə yüksək səviyyəli müzakirə təşkil etdik.

COP29 çərçivəsində aparılan müzakirələrdən sonra Suveren Fondların Beynəlxalq Forumu öz üzvlərinin təşəbbüslərini gücləndirəcəkdir:

1. **İqlim maliyyəsi investisiyalarının artırılması:** Əldə olunan irəliləyişlərə əsaslanaraq, SFBF üzvlərinin iqlim maliyyələşdirilməsinə yatırımlarını artırmaq səylərini dəstəkləyəcəkdir. Bu, xüsusilə iqlimə uyğunlaşma və təsirlərin azaldılması layihələri üçün özəl kapital cəlb edən qarışıq maliyyə strukturlarında SSF-lərin rolunu artırmağa yönələcək və bu təşəbbüslər əsasən inkişaf etməkdə olan bazarlarda və iqtisadiyyatlarda, yəni ehtiyacın ən çox olduğu yerlərdə həyata keçiriləcəkdir.

2. **İnvestisiya portfellərinin dekarbonizasiyası:** SFBF üzvlərinə ədalətli enerji keçidini sürətləndirəcək investisiya imkanlarını müəyyən etmək üçün bilik və bacarıqlarını inkişaf etdirməkdə dəstək göstərəcəkdir və bu, bərpa olunan enerji, yaşıl infrastruktur və az karbonlu texnologiyalar kimi sahələri əhatə edir. Üzvlərimizi portfellərinin karbon intensivliyini azaltmaq üçün müvafiq alətlərin tətbiqində və alternativ yolların araşdırılmasında dəstəkləməyə davam edəcəyik. Eyni zamanda, onların investisiyalarını qlobal iqlim hədəfləri ilə tədricən uyğunlaşdırmaq və milli inkişaf məqsədlərinə töhfə vermək üçün dəstəyimizi davam etdirəcəyik.

3. **Tərəfdaşlıq və əməkdaşlıq əlaqələrinin gücləndirilməsi**: Dayanıqlı İnkişaf Məqsədi 17: “Məqsəd üçün tərəfdaşlıq” çərçivəsində, SFBF üzvləri arasında strateji əməkdaşlıqların yaradılmasını asanlaşdırmağa davam edəcəkdir. Bu prosesdə çox tərəfli inkişaf bankları, digər inkişaf maliyyə institutları, hökumətlər, tədqiqatçılar və özəl sektor tərəfdaşları ilə əlaqələr möhkəmləndirərək iqlim maliyyələşdirilməsini genişləndirmək üçün dayanıqlı yollar müəyyən etməyə çalışacağıq.

4. **İnnovativ maliyyə alətləri və platformalarının yaradılması:** SFBF üzvlərin iqlim layihələrinə və sektorlarına kapital axınını maksimal şəkildə asanlaşdıracaq, eyni zamanda, mandatlarına və

uzunmüddətli investisiya perspektivlərinə görə rəqabətədavamlı gəlirlilik dərəcəsini təmin edəcək potensial yeni maliyyə alətləri və platformaları müəyyənləşdirməyi və onlar haqqında məlumatlılığı artırmağı öhdəsinə götürür.

5. **Şəffaflığın və hesabatlılığın təşviq edilməsi:** Aparılan araşdırma proqramının bir hissəsi olaraq, SFBF üzvlərinin iqlimlə bağlı investisiyalarının şəffaflığını artırmaq məqsədilə onların milli iqlim hədəflərinə uyğun fəaliyyətləri barədə illik hesabatlar təqdim etməyə davam edəcək. Bu öhdəlik hesabatlılığı təmin edir və üzvlərimizin iqlim dəyişikliklərinə və iqlim maliyyələşdirilməsi gündəminə töhfələrini bariz şəkildə nümayiş etdirir.

SFBF, üzvlərini mütəmadi olaraq bir araya gətirərək onların kapitalın səfərbər edilməsi, maliyyə həllərinin təşviqi və qlobal dayanıqlı, az karbonlu və iqlimə davamlı layihələrə investisiyaların artırılması istiqamətində əldə etdikləri birgə nailiyyətləri nəzərdən keçirməyi hədəfləyir. Bu işlər il ərzində xüsusi olaraq təşkil edilən SFBF tədbirlərində, illik görüşlərimizdə müzakirə olunacaq və COP 30 Belen, Braziliya və gələcək BMT-nin İqlim Dəyişiklikləri Konfranslarında qlobal ictimaiyyətlə davam edən əməkdaşlığımız sayəsində gücləndiriləcək və daha da sürətləndiriləcəkdir.